iki sahil

# Səbaildə "Oxu!" sənədli filmi nümayiş olunub




**Ötən gün Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "Oxu!" sənədli filminin nümayişi və dini maarifləndirmə problemləri üzrə "dəyirmi masa" keçirilib.**

Əvvəlcə Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi və "Sağlam Gəncliyə Doğru" İctimai Birliyi tərəfindən hazırlanan "Oxu!" sənədli filmi nümayiş etdirilib.

Çıxış edən YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev tədbirin iki qurumun birgə təşkilatçılığı ilə keçirilən 4-cü olduğunu diqqətə çatdırıb, belə tədbirlərin dini maarifləndirmədə əhəmiyyətindən bəhs edib.

Ş.Hacıyev bildirib ki, zaman-zaman xalqımızın dininin, dilinin unudulması istiqamətində edilən cəhdlərə baxmayaraq, milli dəyərlər sayəsində hər iki amil əsrlər boyu qorunub saxlanılıb. Natiq, eyni zamanda, Azərbaycanın özünün tolerantlıq və multikulturalizm modelinin dünyaya nümunə olduğunu, hazırda bir çox ölkələrin bu modelə böyük maraq göstərdiyini qeyd edib.

DQİDK-nın sədri, YAP icra katibinin müavini Mübariz Qurbanlı da filmin əhəmiyyətindən danışaraq dini xürafatla mübarizədə maarifləndirmənin rolunu diqqətə çatdırıb. M.Qurbanlı müxtəlif dövrlərdə dinə olan münasibətdən bəhs edərək xürafatın cəmiyyətin inkişafa doğru adımlarının qarşısını alan əsas amillərdən biri olduğunu vurğulayıb: "İbtidai insan təbiət hadisələrinə bələd olmadığından bu, onda müxtəlif sitayiş növlərinin yaranmasına səbəb olmuşdu. Lakin müasir insana bütün təbiət hadisələri tanışdır və onun ibtidai insanla müqayisədə xürafatla mübarizə imkanları da genişdir".

Eyni zamanda, İslam dininin inkişafa əngəl olması ilə bağlı deyilənləri təkzib edən M.Qurbanlı inkişafın qarşısını alan yeganə amilin xürafat olduğunu bir daha vurğulayıb: "Əslində bütün dünyəvi dinlərdə - xristianlıqda, iudaizmdə, buddizmdə xürafat, yeni qaranlıq dövr olub. Lakin bunun qarşısı alınıb".

Dövlət Komitəsinin sədri, həmçinin Azərbaycan xalqının milli maraqlarına real və potensial təhlükə mənbəyi olan dini ekstremizmi, radikalizmi təbliğ edən cərəyanlarla mübarizə aparılmasının zəruriliyinə, dindarların, gənclərin və yeniyetmələrin zərərli dini ideologiyaların təsiri altına düşməsinin qarşısının alınması üçün dini maarifləndirmə istiqamətində aparılan fəaliyyətə diqqət çəkib. O, dini radikalizmə, terrorçuluğa, ekstremizmə qarşı mübarizə üçün Azərbaycanda mükəmməl qanunvericilik bazasının mövcud olduğunu qeyd edib.

M.Qurbanlı bildirib ki, bu gün bir sıra ölkələrdə dinlərarası, məzhəblərarası münasibətlərdə gərginlik artsa da, respublikamızın tarixi ənənələri müxtəlif dinlərin nümayəndələrinin dinc yanaşı yaşamasına imkan verir: "Dünyada dini zəmində, eləcə də məzhəblərarası ədavətin qızışdırılması yolu ilə münaqişə ocaqları yaradılsa da, ölkəmizdə buna qarşı səmərəli mübarizə aparılır. Dövlətimiz bütün dini konfessiyalar üçün bərabər münasibət mühiti yaradır, onları himayə edir. Lakin onların işinə qarışmır. Ölkəmizdə dinlə dövlət ayrıdır".

Sonra gənclərin dini maarifləndirmə mövzusu və film ətrafında müzakirələr aparılıb, bu sahədə mövcud olan problemlər və qarşıda duran vəzifələrlə bağlı gənclərin sualları cavablandırılıb, müvafiq tövsiyələr verilib.

**Ceyhun Piriyev,**
***"İki sahil"***